# Güləşçilərimiz yenə də ümidləri doğruldacaqlar



Olimpiya çempionu, "Şöhrət" ordenli Namiq ABDULLAYEV:

## "Tərəqqi dövrünü yaşayan Azərbaycan idmanı "Rio-2016"da da öz sözünü deyəcək"

Gələn həftə Braziliyanın Rio-de-Janeyro şəhərində XXXI Yay Olimpiya Oyunlarına start veriləcək. Azərbaycan nümayəndə heyəti avqustun 1-də Braziliyaya yola düşəcək. Hazırda isə lisenziya qazanmış idmançılarımızın, xüsusən də güləşçilərimizin təlim-məşq toplanışları davam edir. Respublikamızın idman mütəxəssisləri isə inanırlar ki, hər zaman beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edən idmançılarımız "Rio-2016"da da inamlı çıxış edərək Azərbaycan bayrağını yüksəklərə qaldıracaqlar.





Bu fikirdə olanlardan biri də Olimpiya çempionu, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti, əməkdar idman ustası Namiq Abdullayevdir. Bu səbəbdən də Namiq Abdullayevlə görüşüb həm güləş üzrə yığma komandamızın hazırlıqları, həm də Olimpiya Oyunları ilə bağlı gözləntilərini öyrəndik.

*(Qısa arayış: Azərbaycanın Yay Olimpiya Oyunlarındakı güləş üzrə ilk mükafatçısı. 1996-cı ildə ABŞ-ın Atlanta şəhərində keçirilən XXVI Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı. 2000-ci ildə Sidney şəhərində keçirilən XXVII Yay Olimpiya Oyunlarının çempionu. 1994, 1998, 2000-ci illərdə dünya çempionatının gümüş medallarını qazanıb - 1994, 1995, 2003-cü illərdə Avropa çempionu olub. 1995-ci ildə "Tərəqqi" medalı, 2000-ci ildə "Şöhrət" ordeni, 2012-ci ildə isə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adına layiq görülüb).*

Əməkdar idman ustası dedi:

- Bu gün Azərbaycanda idman tərəqqi dövrünü yaşayır. Ölkəmizdə idmanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Tənəzzülə uğrayan Azərbaycan idmanı məhz dahi liderin diqqət və qayğısı sayəsində inkişaf etməyə başladı və idmançılarımız beynəlxalq yarışlarda bayrağımızı yüksəklərə qaldıraraq ölkəmizə medallar gətirdilər. 1996-cı ildə müstəqil dövlət kimi Azərbaycan Atlantada keçirilən Olimpiya Oyunlarında iştirak etdi. Olimpiya Oyunlarında Azərbaycanın 23 idmançısı mübarizə apardı. Bu, gənc müstəqil ölkə üçün böyük uğur sayılırdı. Mən hakimlərin qeyri-obyektivliyi ucbatından gümüş medal qazandım. Həmin zaman məyus idim. Çünki məqsədim qızıl medal qazanmaq idi. Ümummilli lider bizi qəbul edərkən dedi ki, həmin görüşü hamı seyr edib və hakimin səhvini dünya gördü. Ona görə də Heydər Əliyev mənim gümüş medalımı qızıl medal kimi dəyərləndirdi. Söz verdim ki, bu gümüş medalı qızıl medala çevirəcəyəm.

1997-ci ildə idmanımızın inkişafı istiqamətində daha bir mühüm addım atıldı. Cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildi və idmanımızda əsaslı dönüş yarandı. 2000-ci ildə Sidneydə keçiriləcək Yay Olimpiya Oyunlarına hazırlıq başlandı və idmançılarımız üçün bütün şərait yaradıldı. Açılış mərasimində Azərbaycan bayrağdarı mən oldum və bu müqəddəs borcu layiqincə dəyərləndirdim. Vətənə bu dəfə qızıl medalla döndüm.

İdmana diqqət Sidney Olimpiadasında özünü göstərdi - 2 qızıl və 1 bürünc medal qazandıq. 199 iştirakçı dövlət sırasında 34-cü yeri tutmaq Azərbaycan üçün böyük nailiyyət idi. Azərbaycan 2004-cü ildə Afinada keçirilən Yay Olimpiya Oyunlarında 37 idmançı ilə 10 idman növündə təmsil olundu. Güləşçimiz Fərid Mansurov 1 qızıl medal qazandı. Pekin şəhərində keçirilən XXIX Yay Olimpiya Oyunlarında isə Azərbaycan 44 idmançı ilə 10 idman növündə təmsil olundu. Ölkəmizin idmançıları 1 qızıl, 2 gümüş və 4 bürünc medal əldə etdilər. 2012-ci il London Olimpiadasında isə 10 medalla Azərbaycan Olimpiya dünyasında yeni tarix yazdı. 204 ölkə arasında 30-cu yerə sahib çıxdıq. Bu qızıl medalların 2-si güləşçilərimiz tərəfindən qazanıldı, özü də bir gündə. Ümumiyyətlə, 10 medalın 7-si güləşin payına düşdü. Bu da ölkəmizdə güləşə olan marağın, bu idman növünün inkişafının göstəricisidir. Eyni zamanda boks üzrə yığmamızın 2 bürünc medal qazanması da böyük uğur hesab oluna bilər. Eləcə də ağırlıqqaldırmada ölkəmizin aktivinə 1 bürünc medal yazıldı. Bu da tarixi nailiyyət idi. Bütün bu uğurların səbəbkarı isə, əlbəttə, Prezident İlham Əliyevdir. Cənab Prezident daim idmançıların yanında olur. Yarışlardan qabaq isə dövlət başçısı onlarla görüşüb əlavə stimul verir və qələbə qazandıqdan sonra şəxsən medalçıları özü təbrik edir. Bundan fərəhli nə ola bilər!

Ölkəmizdə keçirilən I Avropa Oyunları isə Azərbaycanın bir daha idman diyarı olduğunu təsdiqlədi. Həm idmanın inkişafı, həm də idmançılarımızın uğurları ilə Azərbaycan beynəlxalq idman ailəsinin aparıcı üzvünə çevrildi. Azərbaycan Avropa Oyunlarında evsahibi kimi 289 idmançı ilə 29 idman növündə təmsil olundu. Ölkəmiz 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanaraq ümumilikdə 56 medal ilə Rusiya Federasiyasından sonra ikinci yeri tutdu. Onu da deyim ki, bu Oyunlarda Azərbaycan güləşçiləri 6 qızıl, 2 gümüş və 7 bürünc medal qazanaraq tarixi uğur əldə etdilər. Azərbaycan xalqı öz idmançılarına möhtəşəm dəstək verdi və onların qələbələri ilə qürur duydu.

Əməkdar məşqçi deyir ki, bu gün Azərbaycanda bütün diqqətlər "Rio-2016"ya yönəlib. Bütün idman federasiyaları kimi Güləş Federasiyası da dörd ilin zirvə yarışına hazırlaşır. Olimpiya Oyunları həm də çəkilən əziyyətin, zəhmətin hesabatıdır. Bu səbəbdən də Güləş Federasiyasının bütün rəhbərliyi diqqəti hazırlıqlara yönəldib. Keçən il dünya çempionatında və bu il təsnifat turnirlərində qazanılan uğurlar, medalların əyarları bir daha təsdiq edir ki, güləşçilərimiz "Rio-2016"da da Azərbaycan bayrağını yüksək zirvələrə dalğalandıracaqlar.

Namiq Abdullayev bildirdi ki, güləşçilərimiz Göygöl rayonunda yerləşən Olimpiya Kompleksində təlim-məşq toplanışını yekunlaşdırıb Bakıya qayıdıblar. Hazırda güləş üzrə yığmamızın məşqləri Bakıda davam etdirilir. Avqustun 1-də idmançılarımız yola düşəcək və sonuncu məşq prosesi Braziliyada keçiriləcək. 3 çəki dərəcəsində mübarizə aparacaq qadın güləşçilərimiz isə Ukraynada təlim-məşq toplanışında, yarışlarda olublar və yenidən bu ölkəyə qayıdıb məşqləri davam etdirəcəklər. Oradan da yeqin ki, Braziliyaya yollanacaqlar.

Olimpiya Oyunlarında güləş yarışlarına (yunan-Roma) avqustun 14-də start veriləcək. Beynəlxalq Olimpiya Federasiyasının yeni qərarı ilə Olimpiya Oyunlarında hər gün 2 çəki dərəcəsi üzrə yarışlar aparılacaq. Ayın 13-də çəki mərasimi olacaq, 14-də yunan-Roma güləşi üzrə 2 idmançımız tatamidə mübarizəyə başlayacaq. 3 gün davam edəcək yarışlardan sonra qadın güləşçilərin mübarizəsinə start veriləcək. Sərbəst güləşçilərin yarışları isə qadın güləşçilərin mübarizəsi yekunlaşdıqdan sonra başlayacaq.

Azərbaycanın əməkdar idman ustası inanır ki, 14 çəki dərəcəsində mübarizə aparacaq güləşçilərimizin qazandıqları medalların sayı da çox olacaq. Çünki güləşçilərimiz yarışlara tam hazırlıqlı olmaları üçün federasiya tərəfindən bütün lazımi tədbirlər görülür: "Hesab edirəm ki, çəkilən əziyyət öz bəhrəsini verəcək və güləşçilərimiz yenə də ümidləri doğruldacaqlar. Bu gün Azərbaycan idmanı həqiqətən özünün tərəqqi dövrünü yaşayır. Bütün bunlar isə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində baş verib. İyulun 18-də dövlət başçısı Braziliyaya gedəcək idmançılar və məşqçilərlə görüşü zamanı bir daha vurğuladı ki, Azərbaycanın bu gün idman ölkəsi kimi tanınmasının səbəbi idmançılarımızın beynəlxalq yarışlardakı uğurları, ölkəmizdə keçirilən dünya və Avropa çempionatları və dövlətin idmana göstərdiyi xüsusi diqqətdir. Prezident İlham Əliyevlə idmançılarımızın görüşü həqiqətən onlara böyük ruh yüksəkliyi verdi. Ona görə də idman ictimaiyyətinin nümayəndəsi kimi dövlət başçısına təşəkkür edirəm. Onu da deyim ki, Heydər Əliyev Fondunun rəhbəri, Gimnastika Federasiyasının prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyevaya təkcə rəhbəri olduğu federasiyaya deyil, bütün federasiyalara yüksək diqqət ayırır və bizim olimpiyaçılarımıza xüsusi təqaüdlər verir. Bu da idmançılarımıza stimul verir və onları daha da həvəsləndirir.

Olimpiadada iştirak etmək hər bir idmançının arzusudur. Çünki dünyanın 200-dən artıq dövləti arasında Azərbaycan bayrağını yüksək zirvələrə qaldırmaq ən böyük şərəfdir və hər bir idmançı bu duyğuları hiss etmək istəyir. Olimpiya çempionu olarkən həmin mərasimə toplaşan müxtəlif xalqların nümayəndələri sənin dövlətinin himninin səsləndirilməsi ilə ayağa qalxaraq ehtiram göstərir və bu səndə hiss olunmayacaq dərəcədə qürur hissi yaradır. Həm də digər idmançılara daha əzmkarlıqla mübarizə aparıb bu uğuru təkrarlaması üçün müsbət impuls verir. "Rio-2016"ya lisenziya qazanmış atletlərimizin hər hansısa birinin uğuru digərlərini daha da ruhlandıracaq və Azərbaycan dövləti Braziliyada da yeni tarix yazacaq.

Bir idmançı kimi bütün atletlərimizə uğurlar arzulayıram və ümid edirəm ki, Azərbaycan atletləri "Rio-2016"dan Vətənə üzüağ, alnıaçıq dönəcəklər".

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*